## Tədris Mərkəzində treninq

İyun ayının 7-8-də Vergilər Nazirliyinin Tədris Mərkəzində «Yerli (bələdiyyə) vergilərin və ödənişlərin hesablanması və ödənilməsi» mövzusunda treninq keçilmişdir. Treninqdə Bakı Şəhər Vergilər Departamentinin və ərazi vergilər idarələrinin təlimçiləri iştirak etmişlər.

Tədbir iştirakçılarına Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin sərəncamı ilə təsdiq edilmiş «2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı»na və Vergilər Nazirliyinin əmri ilə təsdiq edilmiş «Yerli (bələdiyyə) vergilərin və ödənişlərin hesablanması və ödənilməsi sahəsində bələdiyyələrə metodiki kömək göstərilməsinə dair 2011-2013-cü illər üçün Tədbirlər Planı»na uyğun olaraq vergi orqanları əməkdaşlarının təlimçiləri üçün keçilən treninqin zəruriliyi izah edilmişdir.

Treninq çərçivəsində fiziki şəxslərin torpaq və əmlak vergisinin hesablanması və ödənilməsi, eləcə də torpağa görə verginin ödənilməsinin məqsədi haqqında məlumat verilmişdir. Bundan başqa, yerli vergi və ödənişlərin ödəyiciləri olan fiziki şəxslərin uçotu, bu şəxslər haqqında məlumat bazasının yaradılması, onların uçota alınması haqqında ərizə formasının və şəhadətnamənin tərtib edilməsi, həmçinin yerli büdcənin vergi ödəyicilərinin reyestrinin aparılması qaydaları təlimçilərin nəzərinə çatdırılmışdır.